# Muxtar respublikada ordumuza mənəvi dəstəyin göstərilməsi ənənə halı alıb

Vətənimizin keşiyində ayıq-sayıq dayanan əsgərlərimizə muxtar respublikada mənəvi dəstəyin göstərilməsi ənənə halını alıb.

Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, muxtar respublikada xalq-ordu birliyinə nümunə olaraq "Cahan Holdinq" Şirkətlər İttifaqının kollektivi N saylı hərbi hissəyə 7 min 76 manat dəyərində sovqat aparıb. Tədbirdə ittifaqın aparat rəhbəri Azər Cəfərov döyüş ruhlu əsgərlərə xoş arzularını çatdırıb. Bildirib ki, birliyimiz möhkəm və davamlı olduqca düşmənlərin ölkəmizə istənilən mənfur niyyəti boşa çıxır.

Hərbi hissənin əsgəri Sahib Əliyev gətirilən sovqata görə minnətdarlığını bildirib.

Azərbaycan.- 2020.-7 oktyabr.- S.11.